# MƏMMƏD ARAZ ŞEİRLƏRİNDƏ TƏBİƏT TƏSVİRLƏRİ

**Adilə Nəzərova**

*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,*

*filologiya üzrə fəlsəfə doktoru*

*a.nezerova@arti.edu.az*

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.

Azərbaycan ədəbiyyatında təbiət həm nəsrdə, həm də şeirdə bir çox sənətkarlar üçün ilham mənbəyi olmuşdur. Xüsusilə XX əsrdə iz qoymuş şairlərin əsərlərində ədəbi-bədii fikrin qeyri-adi təbiət təsvirləri ilə metaforasını görürük.

Xalq Şairi Məmməd Arazın şeirlərində Azərbaycan təbiəti ilə Azərbaycan cəmiyyətinin bənzərsiz paralelliyi təsvir olunur. Şeirlərlə yaxından tanış olduqca bir həqiqəti dərk edirsən ki, insanlar hələ də təbiəti tam öyrənə bilməyib və hətta özləri də təbiətin bir hissəsi ola bilməyiblər.

Qeyd edək ki, əslində heç bir sivilizasiya təbiəti ötməyib və insanla təbiətin inteqrasiyası üçün hələ çox yol var.

Amma deyəsən M.Araz çoxluqdan fərqli olaraq, az da olsa təbiətlə birləşmişdi, ya da, ən azından buna can atmışdı.

Bir qayaya söykənmişəm, deyirəm kaş,
Bax beləcə daşa dönəm yavaş-yavaş.
Taleyimi qayaların taleyinə bağlayam mən,
Bircə insan düşüncəmi saxlayam mən.

Akademik Budaq Budaqov Məmməd Arazın yaradıcılığı haqqında deyir: “Məmməd Arazın bəzi opponentləri tez-tez təkrar edirdilər ki, Məmməd ədəbiyyatçı deyil, coğrafiyaçıdır. Bəli, M.Araz coğrafiya ixtisası üzrə ali təhsil alıb. Mən isə coğrafiyadan başqa elə bir ixtisas tanımıram ki, o, Yer kürəsinin bütün sferalarının, atmosferin, litosferin, hidrosferin, biosferin sintezini özündə cəmləşdirsin. Savadlı coğrafiyaçının təfəkküründə Yer kürəsinin dağları qatarlanıb gedir, okeanlar dalğalanır, atmosfer prosesləri cövlan edir, təbiətin kortəbii hadisələri ətraf mühiti dağıdır, demoqrafik problemlər, dünyanın siyasi durumu, əhalinin coğrafi yerləşməsi, artımı və bütün bunların nəticəsində qlobal ekoloji problemlər yaranır”.

Mənə elə gəlir ki, M.Araz ixtisasca coğrafiya müəllimi olmasaydı da, əvvəl doğulduğu yurdun ecazkar təbiəti, sonra “Azərbaycan – qayalarda bitən bir çiçək” - deyərək, qoynuna atıldığı, sevib oxşadığı Vətən onun şair ruhuna mütləq köçəcəkdi.

Dağlar gördüm, dağlarımın oxşarı,
Zirvələrin görüşünə tələsdim.
Küləkləri saçlarımı oxşadı,
Boranına, yağışına tələsdim.

M.Araz poeziyasının ümumi mahiyyətində “dağ” təbiətin ən mühüm elementi kimi görünür. Bu şeirdə “dağ” həm təbiətin öz reallığında mövcud olan bir parçasıdır, həm də şairin spesifik və dar mənada insanlarla münasibəti kontekstində uzaqdan – məhz ona dogma dağın zirvəsindən demək istədiyini söyləmək üçün nəzərdə tutulan “dağ”dır.

…Torpağımdan duman kimi yığılsam,
Son nəğməmin uçrumuna sıxılsam,
Qəfil qəza yıxmaz məni, yıxılsam,
Ana yurdum, ağuşuna tələsdim.

Hər bir böyük sənətkarda olduğu kimi, M.Arazın da əsərlərində əsas mövzu insandır. Onu həqiqətən maraqlandıran insan, insan taleyi və insanın əbədi dəyəridir. O, təbiəti də, onun ayrılmaz hissəsi olan insan problematikası çərçivəsində təqdim edir. Vətənə, onun

təbiətinə olan sevgisini təbiətin real və konkret obrazları ilə ifadə edir, vətənə bağlılığını, ondan uzaqda olmağı həyatın qeyri-adi solğunluğu - sonu kimi qəbul edir.

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim –
Xəzanımdır, xəzanımdır, xəzanım.

"Vətən mənə oğul desə, nə dərdim" misrası hələ şairin sağlığında dillər əzbəri olmuş, xalqın dilində bir deyimə çevrilmişdi. Ancaq M.Araz vətən sevgisini sakit siması altında bu cür qaynarlıqla - təbiətin belə coşqun təsviri ilə ifadə edə bilərdi. Bu şeiri oxuduqca bir daha yəqin edirsən ki, Vətən Sevgidir, Sevgi isə Təbiətdir. Məhz bu məqamda Yəhya Kamal Bəyatlının aşağıdakı misraları yada düşür:

Baktım ki deniz insanı durgun suyu yardı,
Bir dev gibi mûnis ve yosun saçları vardı.

Bəli, M.Araz Vətənin durğun sularına keşiş çəkən qayalarda bitən mamır- yosun olmağı arzuladı, amma Vətən onun durğun – lal, sakit görüntüsünün altında dərin dərya olduğunu gördü.

Təbiət bütün halları ilə təzad təşkil edir. Bu mənada M.Arazın özü də, şeirləri də təbiətə çox oxşayır, - doğulduğu, təbiətində yetişdiyi doğma Naxçıvanın iqlimi kimi ziddiyyətlidir. Sərhəd tanımayan, hüdud bilməyən şeirləri şair təxəllüsünü aldığı Araz kimi gah təmkinli, susqun, gah da daxilində "qoca vulkan" gəzdirəcək qədər coşğundur. Eynən özünün dediyi kimi:

... O mənim mürəkkəbim,
Mən onun qələmiyəm.
...Yox, Araz deyəndə mən,
Təkcə çay düşünmürəm.
...Mən Arazın səsiyəm.

Əgər şairləri bir ağaca bənzətsək, M.Araz Xan Çinardır, şairliyi bir ağaca bənzətsək, M.Araz o ağacın toxumu kimidir. Şeirləri mənbədir – hər yaradıcı ruhlu insanın qarşısında yeni üfüqlər açır, onu yenidən “yaradır”, yetişdirir, ruhlandırır, yaradıcılıq potensialını genişləndirir.

Təbiəti öz əsərlərində məharətlə əks etdirən sənətkar bu mənada təbiəti təqlid edir, -deyə bilərik. Bəlkə də onun təmkini, ağırbaşlılığı da göz açdığı ulu Naxçıvan torpağının əsrarlı təbiətindən irəli gəlirdi və bu torpağın sirli, daxili-tarixi zənginliyi şairin yaradıcılığını bu cür zənginləşdirmişdi. Naxçıvan təbiətinin təzadlılığı o torpağın insanlarının təbiətinə də hopub, o cümlədən M.Arazın da poetik ruhunu eynilə təqdim edir. Belə ki, şairin yaradıcılığını bütövlükdə təhlil edəndə onun sevən, arzulayan, ağlayan, təəssüflənən, küsən, darıxan, peşman olan, yenidən “dirilən”, hayqıran ürəyinin çırpıntılarını hiss edirik. Beləcə şairin təbiətinin təbiət kimi təzadlı rənglərini görürük.

Sevən Məmməd Araz:

Sevgilim, o qoca palıda bir bax,
Yenə puçurlayıb onun budağı.
Yadına gəlirmi iki il qabaq
O ilk görüşümüz, o bahar çağı?
…Görüb neçə bahar, qış havasını,
Durur qoca palıd bir xatirə tək.
Min yol dəyişsə də, o libasını,
Bizim ilk sevgimiz dəyişməyəcək!

Arzulayan Məmməd Araz:

Nə səkirsən narın-narın
Yenə daşdan-daşa, kəklik?
Könlüm istər nəğmən kimi
Bircə nəğmə qoşa, kəklik! (Kəklik)

Təəssüflənən Məmməd Araz:

Kəndim, balacasan, çox balacasan,
Adın yox dünyanın xəritəsində.
Atılıb qalmısan gözlərdən uzaq
Çaylı, baldırğanlı dağ dərəsində (Kəndim).

Şairin şairlik ruhunu aldığı ilk insan bədahətən şeirlər qoşan anası Cahan xanım, məkan isə dünyanın xəritəsində görə bilmədiyi üçün təəssüf hissilə təsvir etdiyi doğulduğu Şahbuz rayonunun "balaca" Nursu kəndidir. O, ilk olaraq bu kəndin gözəl təbiətindən, qarlı dağlarından, axar-baxarlı çaylarından, gül-çiçəkli biçənəklərindən ilhamlanmış, sonra qarış-qarış gəzdiyi Azərbaycanın hər daşından, hər qayasından ruhlanmışdı. Bəlkə də yanılıram, bu ilham, bu ruh onun təbiətində idi, o, bu ilhamla doğulmuşdu. İ.Nəsimi deyirdi ki, "Dərvişin pirini soruşmazlar".

M. Arazın əksər şeirləri xalq üslubundadır və xalq şeiri duyğu və düşüncələri izhar və ya təsvir etmək üçün təbiət hallarından istifadə edir. Təbiət sevincli və ya kədərli hallarında insanın yoldaşı və sığınacağıdır. M.Araz ismin altı halından dördündən keçir və son iki halını – yerlik və çıxışlıq halını mənimsəyir. "Məndə, səndə" və "məndən, səndən" deyir: "Mən səndə, sən məndə alışasıyıq." Və ya:

Azərbaycan torpağında
Araz boyda şırım açdı –
Məndən ötdü...
…Ey daşlaşan, torpaqlaşan, ulu babam!
Bu günümdən dünənimə uzaqlaşan, ulu babam!
Ayağa dur!
Dəfn etdiyim məsələnin baş daşına
Bir təəssüf xatirəsi yazıb, yondur:
Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.

Səndən, məndən ötən zərbə

Vətən, vətən, sənə dəydi... (Məndən ötdü… *B. Vahabzadəyə*)

“Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı” misrasıyla ədəbiyyat tariximizi yeniləyən şair vətənə, təbiətə və dünyaya “Sevgi nəğməsi” oxumuşdu, sözün əsl mənasında SEVGİni oyrətmişdi.

Ey ilham pərisi, varsansa əgər,

Bu axşam üstümə qanadını gər!

...Dənizə məhəbbət – səpmək öyrənim,

Sahilə məhəbbət – çəkmək öyrənim.

Onu meşələrə səpim – göyərsin.

Onunla qumları öpüm – göyərsin.

Amma bütün istəklərinə baxmayaraq, bəzən küsdürülən vaxtları da olmuşdu şairin. Küsən Məmməd Araz:

O getdi, sahilə baxdım bir qədər,

Mən orda açmışdım ona qəlbimi.

Dayandı gözümdə dalğalı Xəzər,

Mənim ilk eşqimin şahidi kimi... (O baxışlar)

***

Enişi qar, yoxuşu qar bu yolun,

Yad nəfəsdən buz qayası su olu...

Yalan yolu beş addımlıq su yolu,

Aldat məni, unut məni, at məni.

***

Qopdu bir səs, qopdu bir tağ qalamdan,

Göyərçinlər perikdi dağ qalamdan,

Eşqim qalan bu üçbucaq qalamdan

Əlində cam, dilində şam çıxıb get...

***

Haray, durnam, qatarımı itirdim!
Havar çəkdim, havarımı itirdim,
Dalğasında avarımı itirdim,
İnnən belə o gözlərə baxmaram.

Darıxan Məmməd Araz:
Gözümdən getməyir camalın sənin,
Köçüb qonşuluqdan hayana getdin?
Kəpəzmi, Qoşqarmı oldu məskənin
Yoxsa onlardan da o yana getdin?

***

Sən mənim yazıma birinci yağış,
Sən mənim qışıma sonuncu qardın.
O mənim qəlbimdə ünvan tapmamış,
Pərişan bir eşqi hara apardın...

***

Sən getdin, təbiət bir səs itirdi,
Bir sevgi dastanı qaldı yarımçıq.
Bir ulduz əbədi buluda girdi,
Bir çiçək göyərib soldu yarımçıq.
Peşman olan Məmməd Araz:
Axan su, ötən gün qayıtmaz geri,
Bu sirri babalar danışdı getdi.
Bəlkə də o coşğun gənclik illəri
Coşqun dalğalara qarışdı getdi.

***

..Bir zaman yuvanı uçurmuşam mən,
Bəlkə də, bəlkə də o yadındadır.
Dilin yox, dərd açıb söz söyləyəsən,
Dilin də, sözün də qanadındadır.
..Bəlkə bu halımdan incidi dağ-daş
Bunu öz vaxtında duya biləydim.
Bir günlük uşaqlıq günahmı, kaş
Bütün ömrüm boyu yuya biləydim. (Qaranquş)

Narahat Məmməd Araz:

Bu düzləri düz keçin,
Haraysız, səssiz keçin.
Şirvanda ov gəzməyin
Mili tüfəngsiz keçin:
Ceyran azalıb,
Yaman azalıb!

Belə gedərsə ancaq
Gələn nəsillər sabah
Ceyranı çöldə deyil,
Muzeydə axtaracaq.
Ceyran azalıb,
Yaman azalıb!
Təvazökar Məmməd Araz:
Bəsimdir hər səhər təltif yerinə
Qapımda küləyin əsibdir, vətən!

Göründüyü kimi, hansı şeirini təhlilə cəlb etsək, orada təbiət var. M.Araz demək istədiyi hər fikri təbiətlə əlaqələndirir. Zatən şeirin cansız predmetləri – düşüncə, xəyal, hadisə canlının – təbiətin, o cümlədən, insanın üzərinə köçürülməklə metafor yaratmağıdır. Şair də bütünlükdə yaradıcılığında bundan çox ustalıqla istifadə etmişdir.

Hayqıran Məmməd Araz:

Nə yatmısan qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!

M.Arazın "vizit katrı" (imici) olan şeirlərindən biri də bu şeirdir ki, onun vətən məhəbbətini, Araz dərdini izhar edir, "Bu, Şəhriyar harayıdı, Bu, Bəxtiyar harayıdı!" ki, sönmüş vulkan surətli şairin baxışındakı kədəri, üzündəki sükutu parçalayan, daxilindəki püskürən qoca vulkanı bizə göstərdi. Bu ruh Azərbaycan xalqını da oyatdı. Azərbaycan vətəndaşının təbiətindəki vulkan uzun sürən fasilədən sonra yenidən gücləndi…

Qürrələnən Məmməd Araz:

Çox tozanaq atlını təmkin atınla keçdin,
Sel boğan dərələri bir mərd qadınla keçdın.
Bütün keçilməzliyi, Vətən, adınla keçdim...
Haqqın var, Məmməd Araz,
Haqqın var yaşamağa!

M.Araz təbiətlə doğmalaşan şairdir, poeziyasının rəngləri təbiətin bütün rəngləri ilə həmahəngdir və oxucu misralararası o rəngləri görür. Bunu da görür ki, ətrafında nə qədər günəşli günləri öyən, tərənnüm edənlər olsa da, şairin yaşadığı cəmiyyətdə tarix boyu elə də "xoş hava" olmayıb.

Mən Arazda şaxələnən çinardım,
Ömrü boyu tufan əydim, su yardım.
Xətainin qılıncını suvardım,
Məmməd Araz karandaşı göyərdi.

M.Araz karandaşı o dövrdə xalqın vətən sevgisini, torpaq, bayraq təəssübünü tərənnüm edən duyğuların göyərməsi idi. Bəlkə də o şeirlərin ruhu idi ki, uşaq sayılan oxucuların ruhuna köçərək dünən onları Qarabağ uğrunda sonu qələbə ilə bitən savaşa atılmağa həvəsləndirmişdi, bügünün oxucusunu sabahkı bütöv Azərbaycan uğrunda mübarizəyə çağırır…

M.Araz təbiətə həm də müəllim gözü ilə baxırdı:

Təbiət özü də bir kitabxana,
Hər dərə məktəbdir, hər dağ müəllim.

Və yaxud:

Dağlar təbiətin ağsaqqalıdır.
Nəfəsi gələndə meşələr əsir...

Yuxarıda da qeyd etdiyimiz kimi, "dağ", "daş" obrazlı şeirlər şairin daxili aləmindən xəbər verir, onun daxili-intellektual həyat qavrayışını, xarakterini, həyəcanını açır, duyğularını ifadə edir. "Dağ"la insanın əlaqəsini üzə çıxarır. Şair təbiəti kitab kimi oxuyur və hardasa təbiətin kitabını yazır.

Bütün hallarda M. Araz təbiəti qədər də vətəndaşlarını dəyərləndirməklə vətənin ziyasına çevrilmişdi.

Prof. Y.L. Prokuşev Yesenin haqqında belə bir fikir demişdi: "Böyük sənətkarlar eyni zamanda böyük humanistlərdir". Bu fikir sanki məhz Məmməd Araz üçün deyilmişdi. Dərdi Araz dərdi idi, Vətəni ayıran Araz onun üçün təkcə axar çay deyirdi, "bir gəlin hörüyü, bir uşaq yuxusudur", "Muğana uzanan yaşıl qol, dağa çıxan işıq yoludur". M.Arazın sevinci də, kədəri də Araz çayı ilə eynidir.

Araz üstə çinar gördüm,
Qoşa duran bir cüt çinar –
Gəlin çinar, igid çinar…
Qorxdum, qorxdum onların bu sevgisini yaralayar,
Budaqları, gövdələri, rişələri bir-birindən ayıralar.

Şairin şəxsiyyətini təsvir edən düşünən, düşündürən, müdrik obrazları humanizmi və vətəndaşlığı əks etdirir.

Gülüm, bir də görüşünə yubansam,
Adımı tut, harda dağlar dumansa.
Gözünü sıx,
Hansı daşda su yansa,
O daş altda Məmməd Araz yaşayır.

Bu bənddə Gülüm, - deyə xitab etdiyi sevdiyi də (burada: tərəf müqabili, oxucusu), dağlar da, daş üstünə damcıladıqca yanan göz yaşı da, M.Araz da şairin bədii-poetik düşüncəsinin ümumi mahiyyətini əks etdirən qəlbi odlu-alovlu vətəndaş obrazıdır. Yaradıcılığında "daş" xüsusi qırmızı xətlə keçən M. Araz:

Tarix əlifbası daşdan başlanır,
Əl dəydi yumşalır, göyərir indi.
Başdı - daş olubdu, daşdı - baş olub -
Bunları seçmək də hünərdi indi. –
deyərək, təbiətin şeirini, şeirin təbiətini yaradır.

Məmməd Araz şeirinin vurğunu, dinamika, həyəcan yaradan məqalələri ilə şairin şeirlərini təhlil və təbliğ edən Aydın Qacar yazır. "Eldə-obada daşa, qayaya ad vermək ənənəsi var: Gəlin qaya, Toğlu qaya, Ballı qaya, Çadırdaş, Qaval daş və s. ...Bir gün Məmməd Araz çobanlardan məktub alır, yazırlar: Kəlbəcərin "Sarıbulaq" dərəsindəki bir qayaya, sal daşa "Məmməd Araz kürsüsü" adı vermişik. "Fərmanına, təltifinə alqış, ey çoban" - deyib kövrələn Məmməd Araz, xəyalən o qayanın, o çoban hədiyyəsinin görüşünə gedir:

Məmməd qaya, Qaya Məmməd
Xoş gördük sizi...
Olsa-olsa, mən olaram adi daş çapan:
Çopur qaya, Qara Məmməd,

Xoş gördük sizi!

Beləcə, özünəməxsus salamı, nidası, sözü ilə - daha bir vətən qayasına, vətən daşına əl çəkir, üz qoyur".

Məlumdur ki, M.Araz həm də gözəl publisist idi. "Həyatın və sözün rəngləri" kitabında toplanan "Yer üzünün Qarabağ düzü", "Naxçıvan albomu", "Kür qovuşur Səlyana", "Qarabağ simfoniyası", "İkinci yer, ikinci adam" və s. məqalələrdə şairin bir vətəndaş kimi narahatlığı, məsuliyyəti və s. daha aydın görünür. Bu kitabdan görünür ki, şairin publisistik əsərləri də təbiətlə bağlılıq təşkil edir. Kitabdan bəzi yerləri xatırlayaq:

Şair Kürün səviyyəsindən bir-iki metr aşağıda həyəti olan bir nəfərlə söhbət edir:

- Niyə həyətiniz belə səhrayi-kəbirdir?

- Su çəkmirlər, qardaş! Su çəkmirlər!

- Kürdən neçə addımlıqda yaşayırsınız?

- Olar, belə 40-50 metr...

- Əgər quyu qazsanız neçə metrdən su çıxa bilər?

- Yəqin ki, 5-6, uzağı 10 metrdən...

Bu söhbətdən sonra M.Araz kişinin qolundan tutub üzünü Kür çayına tərəf çevirir və deyir: "İşləkliyi, fəallığı Kürdən öyrən. Özünlə, ətalətinlə mübarizə apar. Əgər qapı-bacandan ətaləti qova bilməsən, Kür qapını açacaqdır..."

"Həyatın və sözün rəngləri" kitabı gənc nəslin, zəhmətkeş, qürurlu, qoçaq, vətənpərvər ruhda yetişməsi üçün də faydalıdır.

Təbiətin dili ilə laylay kimi oxuna biləcək əsərləri uşaqları - körpələri yatırdığı kimi, yatan böyükləri də oyadır, oyaqları səfərbər saxlayır, "Tənhalaşan ağacların qəfil sınmaq qorxusu var" (Ə.Kürçaylının xatirəsinə) – deyib, onları birliyə, bərabərliyə səsləyir.

İnsandan – cəmiyyətdən tələb etdiklərini, tənhalaşan insandan narahatlığını yenə də onun bir parçası olduğu təbiətə bağlayır.

"Ana Kürüm, nəfəsini azacıq dər. Başını qoy sahilinə, mürgülə bir. Qulağıma uzaq üfüq arxasından bir səs gəlir:

Ceyranların ayağını yerdən üzüb,
Bunun üçün cavabdehsən, Muğan düzü!
Turacların yol üstünə çıxmır daha,
Bunun üçün cavabdehsən, Muğan düzü!
Bildirçinlər nəğməsini yığıb getdi,
Torağaylar yol üstündən çıxıb getdi…”

M.Arazın publisistikasında da bir avaz, bir poetik ahəng var və deməli, hər iki üslüb şairin vətəndaş düşüncəsinin təbiət təsviri üzərində bədii-poetik dillə ifadəsidir.

Göründüyü kimi, təbiətlə eyniləşdirdiyi vətəndaşlıq mövqeyi şairin təkcə şeirlərinin deyil, bütün yaradıcılığının ümumi mahiyyətini təşkil edir. Ən məşhur şeirlərindən birində dediyi kimi:

Keçək dərələrin boğanağından,
Keçək dolayların doğanağından,
Günəşin zirvədə doğan anından
Nur alıb, bu yurda səpələməsək,
Sən kimə gərəksən,
Mən kimə gərək!?

M.Arazın həm həyatı, həm də yaradıcılığı başdan sona bir mədəniyyətdir - vətəndaşlıq mədəniyyətidir, ziyalı mədəniyyətidir. Göründüyü kimi, o, bu mədəniyyətini də təbiətin dili ilə təqdim edir.

Azərbaycanın füsunkar təbiətindən doymadığını dəfələrlə dilə gətirən şairin dillər əzbəri olan “Əlvida, dağlar” şeiri Azərbaycan təbiətinin müqayisəolunmaz dərəcədə gözəl, canlı, şairin təəccüblü və kəskin müşahidə gücünə əsaslanan təsvirləri ilə doludur.

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal.
Dalımca su səpir yoxsa buludlar? --
Leysan, salamat qal, yağ, salamat qal!

Gəldim, qarşıladı güllər-çiçəklər,
Gedirəm, əl edir boz biçənəklər.
Nidamı çaylara dedi küləklər:
Bulan salamat qal, ax - salamat qal! (Əlvida, dağlar)

M.Arazın yaradıcılığından təbiətlə bağlı şeirləri seçmək çətindir, çünki hər şeirində təbiətdən bir təsvir və ya bənzətmə, metafora vardır. Ona görə də yaddaşımda qalan şeirlərindən nümunələr gətirdim. “Dağlar qoynu çiçək-çiçək, Mən gedirəm, getmir ürək.” deyərək getsə də, o, daim bizimlədir. Bu məqalədə xatırladığımız hər misranın altında Məmməd Araz yaşayır.

Bu və bu kimi araşdırmalar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı imzaladığı Sərəncam ümumxalq ictimaiyyətin, o cümlədən elm və ədəbiyyat adamlarının da iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə qoşulduğunu əks etdirir. Məlumdur ki, müasir dünyamızın üzləşdiyi bu problemlər təkcə ekoloji deyil, həm də mənəvi problemlərdir. Bu baxımdan insanları təbiəti sevməyə və qorumağa çağıran Məmməd Araz şeirlərinin təbliği olduqca aktualdır.